

# 20 Yanvar tariximizin həm qanlı, həm də qəhrəmanlıq səhifəsidir

## 20 Yanvar–qan yaddaşı

*Qəbələ Müalicə-Diaqnostika Mərkəzində 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.*

*Səhiyyə işçiləri əvvəlcə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımızın azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərimizin müqəddəs xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.*





Tədbiri açan mərkəzin baş həkimi Ceyhun Əhmədov Azərbaycan xalqının mübarizə tarixində ən şanlı səhifələrdən olan qanlı Yanvar faciəsinin insanlığa qarşı törədilmiş qatı cinayət olduğunu diqqətə çatdırıb.

Baş həkim həmin gecə keçmiş sovet ordusunun bəşəriyyətə, insanlığa yaraşmayan qətliam törətməsindən, günahsız adamların müxtəlif silahlarla qətlə yetirilməsindən, eyni zamanda bu hadisənin azadlığımız və müstəqilliyimiz yolunda böyük əhəmiyyət daşıdığından söhbət açıb.

Qeyd olunub ki, bu müdhiş faciə hər bir azərbaycanlının həyatında və yaddaşında pozulmaz, dərin iz qoyub.

Baş həkimin müalicə işləri üzrə müavini Kamal Məmmədov çıxışında 20 yanvar gecəsi günahsız və silahsız vətəndaşlarımızın müstəqilliyimiz, suverenliyimiz uğrunda mübarizəyə qalxdığını və bu günkü firavanlığımız üçün şəhid olduqlarını bildirib. Natiq qanlı Yanvar hadisələrinə ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyini ifadə edib.

Kamal Məmmədov bu gün Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndiyini, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin sürətlə inkişaf etdiyini və torpaqlarımızın işğaldan azad edilməsindən ötrü ordu quruculuğunun gücləndirildiyini vurğulayıb.

**“Qəbələ”.**

## Şəhidlər yad edildi

Vəndam qəsəbəsində 20 Yanvar şəhidlərinin xatirəsi yad olunmuşdur. Qəsəbə sakinləri şəhidlər üçün ucaldılmış abidənin önünə gül dəstələri qoyaraq onların müqəddəs xatirəsinə öz ehtiramlarını bildirmişlər. Qurani-Kərimdən ayələr səsləndikdən sonra tədbir ehsan süfrəsi arxasında davam etmişdir. Tədbirdə qəsəbə inzibati ərazi nümayəndəsi İlham Bağırov, Vəndam Bələdiyyəsinin sədri Asif Həşimov, qəsəbə sakinlərindən Seyidağa Həmidov, Azər Azayev, Xalid Həlimov çıxış etmişlər. Çıxış edənlər Vətənimizdə bir daha belə qanların tökülməsini istəmədiklərini və ərazilərimizin tezliklə erməni işğalından azad olmasını arzuladıqlarını bildirmişlər.

Qarabağ döyüşlərində şəhid olmuş Qüdrət İbrahimxəlilovun da vəfatının 23-cü ildönümü ilə əlaqədar xatirəsi bir daha yad edilmişdir.

**✍ Azər AZAYEV,**
**Vəndam sənətkarlıq evinin direktoru.**

## Şamlar yandırıldı

Nic qəsəbəsindəki «Çotari» alban-udi kilsəsində 20 Yanvar Hüzn Günü qeyd olunmuşdur.



Qəsəbə ictimaiyyətinin nümayəndələri sübh tezdən kilsəyə gələrək 1990-cı ilin 20 yanvar hadisələrində Vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsinə udi adətincə şamlar yandırmışlar. Kilsənin keşisi Rafiq Danakari şəhidlərin ruhuna udi dilində dualar oxumuş, Allahdan rəhmət diləmişdir.

Saat $12^{00}$-da kilsənin zəngi çalınaraq şəhidlərimizin müqəddəs xatirəsi ehtiramla yad edilmişdir.

**«Qəbələ».**

## Tariximizin şanlı səhifəsi



**(Əvvəli ötən sayımızda).**

Alban sözünün mənası qədim türk dilində “hündür, uca yer” deməkdir. Sərt sınaqlardan çıxmış qədim Albaniyanın paytaxtı Qəbələnin Qaracayla Qocalancayın arasında ucalan daş və kərpic bürcləri şəhərin qədim müdafiə istehkamına malik olduğundan xəbər verir. Bu ərazidə tapılan pullar, qəbələli Əbubəkir Məhəmmədin bir alim kimi Bağdadda müəllimlik etməsi onu göstərir ki, Qəbələ doğrudan da inkişaf etmiş bir dövlətin paytaxtı olmuşdur. V əsrdə paytaxt Qəbələdən Bərdəyə köcürülür. Bu tarixi baxımdan belə şərh edilir ki, Albaniya möhtəşəm bir dövlət kimi həmişə diqqətdə olmuş və xarici düşmənlərin hücumuna məruz qalmışdır. Bunun qarşısını almaq üçün alban hökmdarı paytaxtı Bərdəyə köçürür. Digər mənbələrdə isə belə açıqlanır ki, geniş ərəb işğallarının təsiri nəticəsində Bizansın dünya ticarətindəki rolu zəyifləyir və ticarət yolunun üstündə yerləşən Bərdə şəhərinin əhəmiyyəti, şöhrəti getdikcə artır. Bununla da Bərdə böyüyür və ”Arran şəhərinin anası” adı kimi məşhur ad qazanır.

Tarixə nəzər salanda görürük ki, Azərbaycan həmişə düşmənlərin hücumuna, XVIII əsrdə isə Rusiya ilə İran tərəfindən misli görünməmiş talanlara, işğallara məruz qalmışdır. 1812-ci ildə İranın Azərbaycana qarşı işğalçılıq hərəkətlərini görən Rusiya ölkəmizin ərazisinə növbəti yürüşlərə başlayır.

**(Ardı növbəti sayımızda).**

## O günlərin şahidiyəm

***Hörmətli redaksiya!***

***Bu məqaləni yazmaqda məqsədim gec də olsa yaxın tariximizdə baş verən Qarabağ və qanlı 20 Yanvar hadisələrinin sahidi kimi döyş bölgələrində və 20 yanvar gecəsində yaralanmış çox saylı soydaşlarımızla şəxsən görüşümdən aldığım acı təəssüratları sizə çatdırmaqdır.***

29 Avqusit 1989-cu ildə Bakı şəhərində Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında Qarabağa Yardım Komitəsinin təsis konfransı keçirildi. Təsis konfransında bizim rayondan mən və Fərman Hacıyev iştirak etdik.

Komitənin bölgüsü ilə Ağdərə rayonunun Sırxavənd kəndini müdafiə edən döyüşçülərə və kənd sakinlərinə maddi köməklik köstərilməsi bizim rayona həvalə edildi.

Həyatımızı təhlükəyə qoyaraq biz dəfələrlə həmən kəndə ərzaq, isti paltar və müxtəlif ləvazimatlar apardıq.



Ağdərə rayonunun sərhəd kəndləri olan Qızılı Kəpgərli, Əhimədətli, Əliqarlı kəndləri sakinlərinin çəkdiyi əziyyət və müsibətlərin şahidi olduq. Təəssüf ki, silahlı dəstələrə vahid rəhbərliyin olmaması, ölkədəki hərc-mərclik bir çox kəndlər kimi Sıxavənd kəndinin də ermənilər tərəfindən işğalına səbəb oldu.

Xidməti işlə əlaqədar olaraq 19 Yanvar 1990-cı ildə Bakı şəhərinə getmişdim. Şəhərə daxil olmaq çox çətin idi. Bakı şəhəri artıq idarə olunmurdu.

Gecə saat 11-12 radələrində müxtəlif səs siqnalları ilə avtomaşınlar küçələrdə hərəkət edərək şəhər sakinlərinin evlərə çəkilməsini tələb edirdi. Şəhərə tankların daxil olacağı elan edilirdi.

Bəzi çağırışlarda isə küçədən getməmək, tank və digər zirehli texnikanın qarşısına canlı sipər çəkilməsi tələbləri irəli sürülürdü. Çox keçmədən tankların müşayiəti ilə nizami ordu Bakı şəhərinə daxil oldu.

**(Ardı 6-cı səhifədə).**

## Azadlığa gedən yol–20 Yanvar

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində 20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümü münasibətilə tədbir keçirildi.

Tədbiri giriş sözü ilə açan Qəbələ Regional QHT -lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov 20 Yanvar faciəsi ilə bağlı məlumat verdi, sonra 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Daha sonra Əlillərə Dəstək Xeyriyyə İctimai Birliyinin rəhbəri Yaşar Hümbətov çıxış edərək bildirdi ki, 20 Yanvarı milli matəm, hüzn günü kimi qeyd edirik, lakin o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini daha da birləşdirdi, onların mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**